# Anar Kərimov bir sıra görüşlər keçirib



Mədəniyyət naziri Anar Kərimov Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Serdar Çamın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazir Anar Kərimov Türkiyənin sərgidə geniş tərkibdə, həm də "fəxri qonaq ölkə" kimi iştirakından məmnunluğunu bildirib. Nazir bu kimi tədbirlərin iki ölkənin qardaşlıq, dostluq bağlarının daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə töhfə verəcəyini vurğulayıb.

TÜRKSOY-un 2023-cü ildə Azərbaycanın Şuşa şəhərini "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan etməsinin xalqımıza böyük qürur hissi yaşatdığını söyləyən Anar Kərimov türk dünyasının zənginliyini göstərmək üçün bu kimi birgə layihələrin gələcəkdə də davam etdirilməsinin əhəmiyyətini qeyd edib. Nazirliyin mədəniyyət sahəsində həyata keçirdiyi layihələrə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Yunus Əmrə İnstitutunun dəstək göstərməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Serdar Çam sərgidə Bakı Beynəlxalq Kitab Sərgisində iştirakından böyük məmnunluq duyduğunu bildirib, yüksək təşkilatçılığa görə nazirə təşəkkür edib.

Serdar Çam Türkiyənin bu sərgidə "fəxri qonaq ölkə" kimi iştirakının iki ölkə arasındakı münasibətlərin davamlı inkişafından xəbər verdiyini söyləyib, bu kimi layihələrin beynəlxalq səviyyədə daha geniş şəkildə təqdim edilməsinə ümidvar olduğunu bildirib.

Görüşdə gələcəkdə mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı həyata keçiriləcək layihələrə dair fikir mübadiləsi aparılıb. Sonda Anar Kərimov 2022-ci ildə Şuşanın 270 illiyi münasibətilə nazirlik tərəfindən təsis olunan "Xatirə nişanı"nı Serdar Çama təqdim edib. Mədəniyyət naziri Anar Kərimov İran İslam Respublikasının mədəniyyət və islami irşad nazirinin müavini Yasər Əhmədvənd ilə də görüşüb. VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Bakı Ekspo Mərkəzində gerçəkləşən görüş zamanı iki ölkə arasında dostluq, əməkdaşlıq münasibətinin bundan sonra da inkişaf edəcəyinə inam ifadə olunub. İranın kitab sərgisində iştirakını yüksək qiymətləndirən Anar Kərimov belə sərgilərin keçirilməsinin yazıçı və naşirlər arasında körpü rolunu oynadığını vurğulayıb, İranın Azərbaycandakı səfirliyi və İran Mədəniyyət Mərkəzi vasitəsilə ölkələrimiz arasında mədəni əlaqələrin davamlı inkişaf etdiyini bildirib.

Sərgiyə dəvətə görə təşəkkürünü bildirən İranın mədəniyyət və islami irşad nazirinin müavini Yasər Əhmədvənd Anar Kərimovu qarşılıqlı əməkdaşlıq çərçivəsində 2023-cü ilin may ayında Tehranda keçiriləcək beynəlxalq kitab sərgisində iştirak etməyə dəvət edib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlərin müzakirəsi aparılıb